*"Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir".*

**Heydər ƏLİYEV**



# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır | 25 aprel 2015-ci il | № 31 (1947) | Qiyməti 25 qəpik

# Azərbaycan Prezidenti İlham Əliyev Türkiyədə Çanaqqala zəfərinin 100 illiyi mərasimində iştirak edib

***Aprelin 24-də Türkiyədə Çanaqqala zəferinin 100 illiyi münasibətilə təntənəli mərasim təşkil olunub.***



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərasimdə iştirak edib.

Təntənəli mərasimə 21 dövlətin başçısı, 70-dən çox ölkədən rəsmi şəxslər, beynəlxalq təşkilatların nümayəndələri qatılıblar.

Mərasim Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın "Mehmetçik" abidəsinin önünə xatirə əklili qoyması ilə başladı. Britaniya taxt-tacının vəliəhdi, Uels şahzadəsi Çarlz isə abidənin önünə ittifaq dövlətləri adından çələng qoydu.

Çanaqqala savaşlarında həlak olanların xatirəsi bir dəqiqəlik sükutla yad olunduqdan sonra yaylım atəşləri açıldı, Türkiyə Respublikasının dövlət himninin sədaları altında türk bayrağı səmada dalğalandı.

Çanaqqala savaşlarında həlak olanların ruhuna Qurani-Kərimdən ayə oxundu.

Sonra Türkiyə Diyanət İşləri başqanı Mehmet Görmez Çanaqqalada şəhid olanların ruhuna dua oxudu, bəşəriyyətə sülh və qardaşlıq arzularını çatdırdı.

Xristian din xadimi də savaşda həlak olanların ruhuna dua etdi.

İttifaq dövlətləri adından çıxış edən Britaniya taxt-tacının vəliəhdi, Uels şahzadəsi Çarlz Çanaqqala savaşında bir çox millətlərin nümayəndələrinin iştirak etdiyini vurğuladı. 1915-ci ildə baş verən bu döyüşdə minlərlə insanın öz ailə və doğmalarını geridə qoyaraq buradakı dəhşətlərə sinə gərdiyini, saysız qəhrəmanlıq nümunələri göstərdiklərini deyən Çarlz bu savaşın tarixə alicənab savaş kimi düşdüyünü diqqətə çatdırdı. Çanaqqala döyüşünün dünya miqyasında ciddi dəyişikliklərə səbəb olduğunu deyən şahzadə Çarlz nifrəti və dözümsüzlüyü aradan qaldırmaq üçün bundan sonra da bütün insanların üzərinə ciddi vəzifələrin və məsuliyyətin düşdüyünü bildirdi.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan çıxışında bildirdi ki, mərasimin keçirildiyi Gelibolu yarımadası Birinci Dünya müharibəsinin ən vacib cəbhələrindən biri olub. "Çanaqqalada yaşanan savaş türklərin və bu müharibədə iştirak edən millətlərin taleyini müəyyən etdi", - deyən Ərdoğan bildirdi: "Bizim üçün Çanaqqala zəfər rəmzidir, eyni zamanda, itkilərimiz baxımından bir hüzn ifadəsidir". Türkiyə Prezidenti bu torpaqlarda yüzlərlə gəncin gələcəyinin dəfn olunduğunu diqqətə çatdırdı. İndi dünyanın əmin-amanlığa böyük ehtiyacının olduğunu deyən Prezident Rəcəb Tayyib Ərdoğan şəhidlərin əziz xatirəsi naminə yer üzündə sülhün bərqərar olması üçün bütün dövlətlərin əllərindən gələni etmələrinin vacibliyini vurğuladı.

Çıxışında Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkün "Uzaq diyarlardan övladlarını hərbə göndərən analar, göz yaşlarınızı dayandırın. Övladlarınız bizim bağrımızda hüzur içindədir. Onlar bu torpaqlarda canlarını verdikdən sonra artıq bizim övladlarımız olublar" sözlərini sitat gətirən Rəcəb Tayyib Ərdoğan bu torpaqlar uğrunda canını qurban verən bütün gənclərin xatirəsini bir daha ehtiramla yad etdi. Bildirdi ki, gələcək nəsillər Çanaqqalada əldə olunan müqəddəs amalları qorumalıdır. Çanaqqala dostluğun, sevginin və sülhün örnəyinə çevrilməlidir.







Sonra dünyanın müxtəlif ölkələrindən olan, fərqli dillərdə danışan uşaqlardan təşkil edilən xorun ifasında türk, fransız və ingilis dillərində "Sülhün səsli nəğməsi" oxundu.

Türkiyə Silahlı Qüvvələrinin "Mehteran" birliyi də öz çıxışlarını nümayiş etdirdi.

Daha sonra Türkiyə Silahlı Qüvvələrinin bölükləri də daxil olmaqla ittifaq dövlətlərinin hərbi birliklərinin fəxri keçidi oldu.

Dövlət başçıları Çanaqqala döyüşlərində həlak olan əsgərlərin məzarlarını ziyarət etdikdən sonra "Mehmetçik" abidəsinin önündə "Şəhidlik dəftəri"ni imzaladılar.

Mərasimin ən maraqlı anlarından biri dənizdə Türkiyə, İngiltərə, Fransa, Avstraliya və Yeni Zelandiya hərbi gəmilərinin keçidi oldu. Bunun ardınca "Türk yıldızları" səmada nümunəvi manevrlər etdilər.

Xatırladaq ki, Çanaqqala döyüşü Birinci Dünya müharibəsi dövründə Osmanlı dövləti ilə Antanta dövlətləri arasında baş verib. İttifaq üzvləri Osmanlı dövlətinin paytaxtı İstanbulu alaraq boğazları idarə etmək hüququnu özlərində saxlamaq istəyirdilər. Lakin onlar türk xalqının dəmir iradəsini sarsıda bilmədilər. Səkkiz ay davam edən və böyük itkilərin qeydə alındığı döyüşlərdə məğlub olan ittifaq dövlətləri geri çəkilmək məcburiyyətində qaldılar. Bu döyüş məhv olmaq vəziyyətindəki bir ölkənin möhtəşəm qələbəsi kimi əfsanələşdi və Çanaqqala zəfəri adı ilə tarixə düşdü. Türklər bu qanlı mübarizədə 250 mindən çox şəhid verdilər. Bir o qədər hərbçi itirən müttəfiq qüvvələr üçün isə bu döyüş hərbi fəlakət rəmzi kimi qiymətləndirilir.

Çanaqqala zəfərinin əldə olunmasında azərbaycanlılar da yaxından iştirak ediblər və üç mindən çox soydaşımız şəhidlik zirvəsinə ucalıb.





* * *

Aprelin 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasına işgüzar səfəri başa çatıb.

Çanaqqala şəhərinin hava limanında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

**AZƏRTAC**

# Müdafiə naziri ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi ilə görüşüb



***Aprelin 22-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anjey Kasprşik ilə görüşüb.***

Müdafiə naziri Ermənistan tərəfindən ərazilərimizin işğal edilməsi, rəsmi Yerevanın sülh danışıqlarından boyun qaçıraraq cəbhədə vəziyyəti gərginləşdirməsi və son vaxtlar uğursuzluğa düçar olaraq çoxsaylı itkilərə məruz qalan düşmənin minaatanlardan, iriçaplı silahlardan istifadə etməklə yaşayış məntəqələrini, qeyri-hərbi obyektləri və dinc sakinləri atəşə tutmaları faktlarını bir daha qonağın diqqətinə çatdırıb.

"Silahlı Qüvvələrimizin bölmələri hər dəfə düşmənin atəş nöqtələrini susdurmaq məqsədilə effektiv cavab tədbirləri görür. Təmas xəttində yerləşən bütün şəxsi heyətə hərəkət edən istənilən hərbi obyekti dərhal məhv etmək tapşırığı verilib və bu qeyd-şərtsiz yerinə yetirilir.

Ermənistanın kriminal hərbi-siyasi rejimi öz xalqını informasiya vakuumunda saxlamaqla itkilərini gizlədir və gənclərini girova çevirməklə onları bu mənasız müharibədə qırdırır.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin bildirdiyi kimi, münaqişənin yeganə həlli yolu işğalçıların ərazilərimizi tərk etməsidir.

Düşmən anlamalıdır ki, bizim yolumuz haqqdır. Silahlı Qüvvələrimiz işğalçıları məhv etməyə daim hazırdır. Ordumuzun arsenalında, xüsusilə özümüzün və digər ölkələrin hərbi-sənaye komplekslərinin istehsalı olan keyfiyyətli, yüksək dəqiqliyə və geniş ərazidə dağıdıcı qüvvəyə malik, silahlanmaya qəbul edilmiş yeni silahlar sayəsində bu vəzifəmizi layiqincə yerinə yetirəcəyik", - deyə Müdafiə naziri bildirib.

Görüşdə qoşunların təmas xəttindəki hazırkı vəziyyət, keçirilən monitorinqlərin nəticələri və münaqişəsinin həllinə dair də fikir mübadiləsi aparılıb.

**Müdafiə Nazirliyi
Mətbuat Xidməti**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Müdafiə naziri Türkiyə Respublikasına yola düşüb

***24 aprel 2015-ci il.***

Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Türkiyə Respublikasının Milli Müdafiə naziri cənab İsmət Yılmazın dəvətilə Çanaqqala zəfərinin 100-cü ildönümü münasibətilə anım mərasimində iştirak etmək üçün Türkiyəyə yola düşüb.

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozmuşlar

***24 aprel 2015-ci il.***

Müdafiə Nazirliyi bildirir ki, erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini ümumilikdə 36 dəfə pozub.

Goranboy rayonunun Tapqaraqoyunlu, Gülüstan, Tərtər rayonunun Çiləbürt, Göyarx, Çaylı, Qızıloba, Ağdam rayonunun Şuraabad, Sarıcalı, Cəvahirli, Şirvanlı, Şıxlar, Baş Qərvənd, Yusifcanlı, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Horadiz, Qorqan, Aşağı Əbdürrəhmanlı kəndləri yaxınlığında, həmçinin Goranboy, Xocavənd və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərindən Silahlı Qüvvələrimizin mövqeləri atəşə məruz qalıb.

Düşmən cavab atəşi ilə susdurulub.

# Müdafiə naziri Türkiyə Silahlı Qüvvələrinin nümayəndə heyəti ilə görüşüb

***Müdafiə naziri general-polkovnik Zakir Həsənov Azərbaycanda rəsmi səfərdə olan Türkiyə Respublikası Silahlı Qüvvələrinin tibb komandanı - Gülhanə Hərbi Tibb Akademiyasının rəisi, korpus generalı Ömər Paçın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.***



Görüş iştirakçıları əvvəlcə Azərbaycan Tibb Universitetinin Hərbi tibb fakültəsində tədris, təlim, praktiki məşğələlər üçün yaradılan Simulyasiya Mərkəzi, tədris laboratoriyası, kompüter sinfi, kitabxana, həmçinin yataqxana kompleksi ilə tanış olublar.





Tanışlıq zamanı bildirilib ki, Hərbi tibb fakültəsində yeni yaradılan Simulyasiya Mərkəzi dünyanın qabaqcıl ölkələrində istehsal olunan müasir tədris vasitələri-manikenlər (mulyaj) ilə təchiz edilib. Bu manikenlər üzərində fakültənin kursant və rezidentlərinə magistral damarların pulsasiyası, patoloji ürək tonları, ürək ritminin və ağciyər tənəffüsünün pozulması halları, həmçinin torokosintez, traxeyanın intubasiyası, plevra boşluğunun drenaj edilməsi, venapunksiya kimi əməliyyatlar öyrədilir. Bu tədris vasitələrinin köməkliyi ilə gələcək hərbi həkimlər yüksək praktik vərdişlərə yiyələnəcəklər.

Sonra brifinq salonunda şəxsi heyətlə görüş keçirilib.

Tibb Baş İdarəsinin rəisi general-mayor Natiq Əliyev bildirib ki, hərbi tibb təhsilinin bütün formalarının mərkəzləşdirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin Sərəncamına əsasən, 2000-ci ildə Tibb Universiteti nəzdində Hərbi tibb fakültəsinin yaradılması qərara alınıb. 2015-ci ilin fevral ayında Müdafiə nazirinin tapşırığı və dəstəyi ilə fakültənin əsaslı təmiri başlanıb. Hazırda fakültədə təhsil alan kursantlar Silahlı Qüvvələrin şəxsi heyətinin tibbi təminatının müasir tələblərinə cavab verən peşəkar hərbi tibbi kadrlarının əsasını təşkil edirlər.



Ölkəsinin hərbi tibb tarixi haqqında məlumat verən korpus generalı Ö.Paç Azərbaycana səfərindən şərəf duyduğunu, dövlətlərimiz arasında bütün sahələrdə olduğu kimi hərbi tibb istiqamətində də əməkdaşlığın yüksək səviyyədə qurulduğunu və daim genişləndiyini vurğulayıb.

Tibb Universitetinin rektoru Əhliman Əmiraslanov da bu günün Hərbi tibb fakültəsinin tarixində əlamətdar gün olduğunu və yeni binada kursantlar üçün bütün şəraitin yaradıldığını bildirib.

Müdafiə naziri general-polkovnik Zakir Həsənov Azərbaycan Prezidenti cənab İlham Əliyevin diqqət və qayğısı nəticəsində Silahlı Qüvvələrin hər bir sahəsində olduğu kimi hərbi tibb sahəsinin də sürətlə inkişaf etdiyini vurğulayıb. Türkiyə ilə hərbi tibb sahəsində əməkdaşlığa toxunan nazir bu istiqamətdə təhsil, təcrübə mübadiləsi və digər görülən işləri, qardaş ölkənin daim dəstəyini yüksək qiymətləndirib.

Müdafiə naziri son vaxtlar cəbhədəki gərgin vəziyyətə, düşmənin təxribat törətmək cəhdlərinə diqqət yetirərək hərbi tibb mütəxəssislərinin dərin biliklərə, geniş təcrübəyə malik olmalarını xüsusi qeyd edib.

"Hər bir hərbi həkim bilməlidir ki, şəxsi heyətin sağlamlığı, əsgərə ilkin tibbi yardımın göstərilməsi döyüş tapşırığına, ümumilikdə döyüş hazırlığına təsir edən əsas faktorlardan biridir. Məhz bu səbəbdən də torpaqlarımızı işğaldan azad etməyə hazır olan Silahlı Qüvvələrimizdə xidmət edən hərbi həkimlərimizin döyüş meydanında rolu əvəzsizdir və danılmazdır", - deyə Müdafiə naziri bildirib.

Sonra Müdafiə naziri general-polkovnik Zakir Həsənovun və korpus generalı Ömər Paçın nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü keçirilib.

**Müdafiə Nazirliyi
Mətbuat Xidməti**

*Çanaqqala zəfəri - 100*

# Məşəl kimi bir sevgi var içimdə




***İnsanları da, xalqları da keçmişinə bağlayan, gələcəyinə ayna tutan yaddaşdır, unutqanlığın qarşısına sipər çəkən gendən, qandan gələn bağlılıqdır. Türk xalqlarını da zaman-zaman bir-birindən ayrı salmağa, əlifbasını dəyişməklə, inamını, adət-ənənəsini hafizələrdən silməklə bir-birindən ayrı salmağa, parçalamağa çalışmışdılar. Amma zaman göstərdi ki, gen və qan birliyini pozmaq asan deyil.***

Heç yadımdan çıxmaz. Ötən yüzilliyin 70-ci illərində orta məktəbdə oxuyurdum, haradansa eşitdiyim Çanaqqala sözü qulağıma çox şirin gəldiyinə görə bu barədə atamdan soruşdum. Atam müəllim işləyirdi və yetərincə dünyagörüşə malik ziyalı idi. Əlini çiynimə qoyub gülümsündü, yəni, bu söz haradan ağlıma düşüb. Amma sualıma da cavab verdi:

- Çanaqqala İstanbulun dəniz qapısıdı. Birinci Dünya müharibəsində Antanta ölkələri buradan keçib Türkiyənin ürəyini - İstanbulu tutmaq, ölkəni parçalamaq istəyirdi. Amma türklər Çanaqqalada böyük qəhrəmanlıq göstərib onları dənizə tökmüşdü.

Atamın o zaman iftixar hissilə dediyi sözlər bu gün də qulaqlarımda cingildəyir:

- Türklər bizim qardaşlarımızdı, oğul!

Mənim Türkiyəyə sevgim o zamandan başlanıb. İstanbul haqqında məlumatları həssaslıqla oxuyar, radioda uzaq dalğalardan Anadolu türkülərinə sevgiylə qulaq asardım. Qəlbində məşəl kimi bir Türkiyə sevgisi gəzdirən tək mən idimmi? Təbii ki, yox!

Çar Rusiyasında, sonralar Sovetlər Birliyində sanki bir Türkiyə yasağı mövcud idi. Yadıma gəlir, M.Lomonosov adına Moskva Dövlət Universitetində təhsil aldığım illərdə irəvanlı tələbə yoldaşım vardı. Keçmiş SSRİ-nin ən böyük kitabxanası olan Lenin kitabxanasına xaricdə yaşayan erməni diasporlarının dərc etdirdiyi qəzetləri oxumağa gedərdi. Amerikada, Fransada yaşayan soydaşları ilə Eçmiədzin vasitəsilə sıx əlaqə saxladıqlarını qürurla söyləyərdi. Amma biz hansısa müəssisədə işə düzələrkən doldurduğumuz anketdə xaricdə qohumlarımızın və ya onlarla heç bir əlaqəmizin olmadığını mütləq qeyd etməliydik.



Bütün bu qadağalara, məhdudiyyətlərə baxmayaraq, insanların içində bir Türkiyə yangısı, qardaş sevgisi közərməkdəydi. Və məqamı gələndə bu sevgi özünü bütün parlaqlığı ilə büruzə verirdi.

Söyləyirlər ki, sevimli türk müğənnisi Emel Sayın Sovet dönəmində Bakıya konsert verməyə gəlibmiş. Bu, arkadaşlarımızın Azərbaycana nadir gəlişlərindən idi. Xoş xəbər qısa zamanda dildən-dilə keçib bütün Azərbaycana yayılıbmış. Böyük anşlaqla keçən konsert zamanı Emel Sayının da, bakılı tamaşaçıların da sevincdən göz yaşları tökdükləri bu gün də unudulmayıb.

Bizi qardaşlarımızdan ayrı salmış Sovetlər Birliyi çökəndən sonra ilk dəfə Bakıya gələn türkləri qarşılamaq üçün Binə aeroportuna nə qədər insan axışmışdı. İstanbuldan, Ankaradan gəlmiş qardaş və bacılarımızın ayaqları altında neçə-neçə qurban kəsilmişdi. Deməli, gen və qan yaddaşı beynimizin və ürəyimizin dərin qatlarında yaşayır və heç zaman silinmir.

Həyat göstərir ki, qardaşlıq duyğuları hər şeydən güclüdür və imperiyaların qadağalarını aşıb keçməyə, qırıb atmağa qadirdir.



Qardaşlıq duyğularının qırılmazlığını, dözümünü, möhkəmliyini yüz il öncə baş vermiş hadisələr, Çanaqqala döyüşləri də açıq-aydın göstərir.

Həmişə Türkiyəyə düşmən gözü ilə baxmış Çar hökuməti, təbii ki, ölüm-dirim mübarizəsi aparan istanbullulara Bakıdan, Bağçasaraydan, Aşqabaddan, Kazandan, Səmərqənddən köməyə getməyə heç cür imkan verməzdi. Amma Çar imperiyasının türk əyalətlərindən, o cümlədən Azərbaycandan təəssübkeş, soykökünə bağlı insanlar bütün qadağalara rəğmən dar gündə qardaş harayına getmişdilər.

Türkiyənin tanınmış teleaparıcısı, Mərmərə Universitetinin müəllimi, yazıçı-rublisist Əbdülhəmid Avşarın bloqunda yazdıqlarını həyəcansız oxumaq mümkün deyil. Türk dünyasının dörd bir yanından insanların Osmanlı Ordusunun savaşdığı hər cəbhədə könüllü olaraq qardaşlarının yanına savaşmağa gəlməsini vurğulayan yazarın "Asiya taboru" barədə verdiyi bilgi soykökümüzün eyni, birliyimizin sarsılmaz olduğunu göstərmirmi?

Əbdülhəmid bəy yazır: "Dış (Türkiyədən kənarda yaşayan) türklər Birinci Dünya müharibəsində Osmanlı dövlətinə dəstək üçün hər nə qədər düzənli bir ordu göndərmə imkanından məhrum idilərsə, təklikdə Osmanlı Ordusu sıralarında vuruşmaqdan, maddi yardım və həmrəylik göstərməkdən imtina etməyiblər.

Ona görədir ki, bu gün Çanaqqala şəhidliyini gəzərkən Türk Dünyasının çəşidli yerlərindən gələrək Osmanlı Ordusu səflərində savaşırkən həlak olmuş əsgərlərin məzar daşları diqqəti çəkir. "Təbriz", "Bakı", "Krım" kimi yer adlarıyla əbədiləşən bu məzar daşlarının rəmzi anlamı böyükdür. Burada şəhid və ya qazi olanlar heç bir məcburiyyət olmadan Anadolunun bu yerlərinə sırf qardaşlıq duyğuları ilə qaçıb gəlmişlər".

(Ardı 4-cü səhifədə)

AZƏRBAYCAN ORDUSU
3
25 aprel 2015-ci il

*Əlağa Şıxlinski - 150*

# Görkəmli sərkərdənin xatirəsinə ehtiram



***Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin görkəmli hərbi xadim general Əlağa Şıxlinskinin anadan olmasının 150 illik yubileyinin keçirilməsi haqqında sərəncamının icrası ilə əlaqədar olaraq Müdafiə Nazirliyinin hərbi hissə və birləşmələrində tədbirlər davam edir.***

Bu tədbirlər silsiləsinin davamı olaraq aprelin 23-də böyük sərkərdənin Yasamal qəbirstanlığındakı məzarı önündə anma tədbiri keçirilib.

Tədbirdə Müdafiə nazirinin şəxsi heyət üzrə müavini - Şəxsi Heyət Baş İdarəsinin rəisi general-leytenant Kərim Vəliyevin rəhbərliyi ilə nazirliyin bir qrup zabiti, Şıxlinskilər nəslinin nümayəndələri və digər şəxslər iştirak ediblər.

General Ə.Şıxlinskinin xatirəsini yad etmək məqsədilə fəxri qarovul düzülərək onun məzarı önünə əklil və gül dəstələri qoyulub.

Sonra Müdafiə nazirinin müavini general-leytenant K.Vəliyev çıxış edərək bildirib ki, tanınmış hərbi xadimin 150 illik yubileyinin keçirilməsi haqqında ölkə Prezidenti cənab İlham Əliyevin sərəncamına əsasən, Müdafiə naziri tərəfindən tədbirlər planı imzalanıb.

"Yubiley tədbirlərinin keçirilməsi fevral ayında generalın doğma yurdu Qazaxdan başlayıb. Görkəmli sərkərdənin dünya hərb nəzəriyyəsində - artilleriya elmindəki kəşfləri, XX əsr müharibələrində, cəbhələrdə qazandığı təcrübələrinə əsaslanaraq 1918-ci ildə müstəqil Azərbaycan Ordusunun yaranmasında və formalaşmasındakı fəaliyyəti xalqımızın yaddaşında həmişə qalacaq. Bu gün də onun hərb elminə - artilleriya elminə gətirdiyi yeniliklər, kəşflər xüsusi əhəmiyyəti baxımdan orduda tətbiq olunur. Generalın keçdiyi ömür yolu hər kəsə örnəkdir", - deyə nazir müavini vurğulayıb.

Şıxlinskilər nəslinin nümayəndəsi, əməkdar incəsənət xadimi Ziya Şıxlinski çıxış edərək, sərəncamla bağlı keçirilən təntənəli yubiley tədbirləri ilə əlaqədar ulu öndər Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı İlham Əliyevə və Müdafiə naziri general-polkovnik Zakir Həsənova minnətdarlığını ifadə edib.



Sonda yekun yubiley tədbirinin bu ilin sentyabrında Bakının erməni-bolşevik daşnak qüvvələrindən azad olunduğu gündə keçiriləcəyi diqqətə çatdırılıb.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

*Vətənpərvərlik*

# Orduda xidmət şərəfdir

"N" hərbi hissəsində gənc əsgərlərin orduya qəbul edilməsi istiqamətində işlər davam edirdi. Məlum olduğu kimi, Silahlı Qüvvələrdə ölkə Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin sərəncamına uyğun olaraq Azərbaycan Respublikası vətəndaşlarının 2015-ci il aprelin 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması prosesi həyata keçirilir.

Polkovnik-leytenant Rafael Allahverdiyev bizimlə söhbətinə ulu öndər Heydər Əliyevin gənclərin hərbi xidmət keçməsi haqqında fikirləri ilə başladı.

- Gərək hər bir gənc orduya səfərbər olmağa hazır olsun və orduda xidmət etməyi özünə şərəf kimi qəbul etsin, - zabit R.Allahverdiyev dedi - Bəli, ümummilli liderimizin 19 il öncə Azərbaycan gənclərinə müraciətlə söylədiyi bu müqəddəs kəlam hər zaman dəyərli və qiymətlidir. Onun siyasi kursunun layiqli davamçısı, Prezidentimiz cənab İlham Əliyevin cəbhə bölgələrinə səfəri zamanı əsgərlərlə görüşməsi, onlarda döyüş əzminin yüksək olmasını ifadə etməsi gənclərimizi hər an səfərbər olmağa, erməni işğalında qalan torpaqlarımızı azad etməyə ruhlandırır. Qeyd etməliyəm ki, bugünkü ordumuz 20-22 il əvvəlki ordu deyil. Silahlı Qüvvələrimiz müasir silah və texnika ilə təmin olunub, sarsılmaz, güclü müdafiə qabiliyyətinə malik orduya çevrilib. Qüdrətli ordusuna güvənən gənc əsgər də ilk gündən hərbi vərdişləri tam mənimsəməyi qarşısına məqsəd qoyur və təcrübə onu göstərir ki, buna da nail olur.

Söhbəti davam etdirən zabit Musa Teymurov bildirdi ki, gənc əsgərlərin hərbi xidmətə qəbulu onlara hərbi forma geyindirilməsi, hərbi hissə və ərazi ilə, hüquq və nizamnamələrlə, komandanlıqla tanışlıqla başlayır. "Əslində onların hərbi vərdişlərə mükəmməl yiyələnməsi orta məktəb illərindən ordu həyatına, hazırlıq səviyyəsindən də çox asılıdır. Əvvəlki illərlə müqayisədə gənclərin hərbi hazırlıq səviyyəsi ürəkaçandır. Onlar hərbi xidmət dövründə döyüş, fiziki, mənəvi-psixoloji hazırlıqlarını artırmağa səy göstərirlər".

Hərbi hissənin bir tərəfində orduya yenicə gəlmiş gənc əsgərlər görünür. Xidmətdə ilk addımlarını atmağa başlayan hərbi geyimli gənclərə yaxınlaşıb özlərini təqdim etməyi xahiş edirəm. Ruhlan İsgəndərli, Elvin Xəlilov, Emil Əsədov, Elşad Zülfüqarov, Elsevər Hacıyev Vətənimizin ayrı-ayrı bölgələrindəndirlər. Onlarla söhbətdən aydın olur ki, hər birinin arzusu hərbi sirləri - silah və texnikadan istifadə qaydalarını öyrənərək torpaqlarımızı erməni işğalçılarından azad etməkdir. Çingiz Mustafayev, Mübariz İbrahimov, Fərid Əhmədov və başqa qəhrəmanlarımızın döyüş ənənələrinin özlərinə örnək olduğunu bildirirlər.



Hərbi hissədə şəxsi heyətin təlim-tərbiyə işlərinə cavabdeh şəxslərdən olan zabit Fərid Tahirov söylədi ki, hazırda gənc əsgərlər ordu həyatının ən müqəddəs anı olan andiçməyə ciddi hazırlaşır, əlamətdar günü səbirsizliklə gözləyirlər.

İnanıram ki, bu gün hərbi xidmətə yeni başlayan Elmidar Şirvanski, Emin Mirzəyev, Pərvin Cəfərquliyev, Məhəmməd Gənciyev kimi gənclərin timsalında bütün əsgərlər ordu həyatında oddan-alovdan keçərək mətinləşəcək, torpaqlarımızın azadlığı, ərazi bütövlüyümüz uğrunda döyüşə hər an hazır olacaqlar.

**Lalə ADİLQIZI,**
**"Azərbaycan Ordusu"**

# Azərbaycan Respublikası Silahlı Qüvvələrinin şəxsi heyəti ilə ictimai-siyasi hazırlıq sistemində keçirilən dərs

**Mövzu:** *Faşizm üzərində Qələbənin 70 illiyi. Tarixi qələbədə Azərbaycan xalqının rolu.*

**Məqsəd:** ***İkinci Dünya müharibəsi haqqında tarixi həqiqətləri şəxsi heyətə çatdırmaq, faşizm üzərində qələbədə Azərbaycan xalqının rolu barədə onlara məlumat vermək; hərbi qulluqçuları hərbi vətənpərvərlik, qəhrəmanlıq ruhunda tərbiyə etmək.***

**SUALLAR:**

**1. İkinci Dünya müharibəsi. Tarixi qələbədən 70 il keçir.**

**2. Faşizm üzərində qələbədə Azərbaycan xalqının rolu.**

## İkinci Dünya müharibəsi. Tarixi qələbədən 70 il keçir

İkinci Dünya müharibəsi bəşəriyyət tarixində ən böyük hərbi-siyasi münaqişə olmuşdur. 1933-cü ilin yanvarında Hitlerin Almaniyada hakimiyyətə gəlməsi ilə müharibənin reallaşması həqiqətə çevrildi. Dünya ağalığı iddiasında olan faşizm öz niyyətlərinə çatmaq məqsədilə 1939-cu il sentyabrın 1-də Polşaya hücum etməklə İkinci Dünya müharibəsinə başladı. Müharibə xronoloji baxımdan üç dövrə bölünür: birinci dövr 1939-cu il sentyabrın 1-dən 1942-ci ilin iyununa qədər, ikinci dövr 1942-ci ilin iyunundan 1944-cü ilin yanvarına qədər, üçüncü dövr isə 1944-cü ilin yanvarından 1945-ci ilin sentyabrın 2-dək davam etmişdir. Müharibənin ilk dövründə SSRİ təhlükəni özündən uzaqlaşdırmaq və ölkənin müdafiəsini gücləndirmək siyasəti yürüdürdü. O, Almaniya ilə diplomatik və iqtisadi əlaqələri davam etdirir, eyni zamanda hərbi-siyasi potensialını gücləndirir və sərhədlərini genişləndirirdi. SSRİ və ABŞ-ın müharibəyə qatılması, Sovet qoşunlarının ilk uğursuzluqları, alman ordularının Moskva ətrafında ilk məğlubiyyəti, antihitler koalisiyasının yaradılması və başqa hadisələr birinci mərhələyə düşür.

1941-ci ilin yayında artıq faşistlər, demək olar ki, bütün Avropanı, Polşanı, Avstriyanı, Çexoslovakiyanı, Yuqoslaviyanı, Yunanıstanı, bütövlükdə Avropanın bir neçə ölkəsini və Fransanın xeyli hissəsini zəbt etmişdilər. Onlar Avropanın təqribən 290 milyon nəfər əhali yaşayan 2 milyon kvadratkilometr ərazisini ələ keçirmişdilər. Hitler hələ 1940-cı ilin ikinci yarısında SSRİ-yə hücum etmək planı hazırlamağa başlamışdı və bu plan 1940-cı il dekabrın 18-də təsdiq olunmuşdu. Ona simvolik olaraq "Barbarossa" adı verilsə də, "ildırım sürətli müharibə" planı adlandırılırdı. Həmin plana görə, 1941-ci ilin payızına qədər SSRİ diz çökdürülməli idi.

Dünya ağalığı iddiasında olan faşist Almaniyası 23 avqust 1939-cu ildə imzalanmış, on il müddətinə hücum etməmək, dostluq və əməkdaşlıq haqqında müqavilələrini pozaraq, 1941-ci il iyunun 22-də bütün sərhəd boyu SSRİ üzərinə hücuma keçdi. Bununla da alman-Sovet müharibəsi başlandı. Bu, Rusiyanın Sovet dövrü tarixinə Böyük Vətən müharibəsi kimi daxil olmuşdur. Düşmənin yaxşı silahlandırılmış və hərtərəfli təcrübə, habelə təlim keçmiş 5,5 milyonluq canlı qüvvəsi, yüksək hərbi texnikaya malik 190 diviziyası Barens dənizindən cənuba doğru uzanan 5 min kilometrlik ərazidə: şimal, mərkəz və cənub istiqamətlərində geniş əməliyyata başladı. Müharibənin ilk dövründə qüvvələr nisbəti düşmənin xeyrinə idi və ilk yarımildə xeyli uğur qazandı, ölkənin içərilərinə soxuldu, Leninqradı (Sankt-Peterburq) mühasirəyə aldı. Moskvaya qədər irəliləyə bildi, Sovet ordusunun 1,5 milyon canlı qüvvəsini əsir aldı, xeyli hərbi texnikasını sıradan çıxara bildi. Eyni zamanda, faşist Almaniyası İtaliya, Rumıniya, Macarıstan və Finlandiya da daxil olmaqla, işğal etdiyi bütün ölkələrin iqtisadi və hərbi potensialını öz əlində cəmləşdirdi. Faşist Almaniyası hərbi cəhətdən SSRİ-dən 1,5-2 dəfə güclü idi. SSRİ isə hələ müharibəyə tam hazır deyildi. Ölkədə arxayınlıq hökm sürürdü, üstəlik, müharibə ərəfəsində keçirilən kütləvi-siyasi repressiyalar orduya böyük zərbə vurmuşdu. Sovet ordusunun komanda heyətindən 43 min nəfər repressiyaya məruz qalmışdı. Ordunun ali rütbəli heyətindən 1800 adam həbs olunmuşdu. 5 marşaldan 3-ü, 15 ordu komandirindən 13-ü, 57 korpus komandanından 50-si, 186 diviziya komandirindən 154-ü, 406 briqada komandirindən 220-si repressiyaya məruz qalmışdı. Məhz bunlara və digər səbəblərə görə faşistlər müharibənin ilk mərhələsində böyük qələbələr qazandılar.

Müharibənin ilk mərhələsində antihitler koalisiyası formalaşdı. 1941-ci il iyunun 22-də İngiltərə SSRİ-ni müdafiə edəcəyini, iyunun 23-də isə ABŞ müharibədə ona iqtisadi yardım göstərəcəyini bildirdi. 1941-ci ilin yayında SSRİ, ABŞ və Böyük Britaniya arasında çox fəal danışıqlar aparıldı və bir sıra müqavilələr imzalandı. Avqustun 2-də ABŞ SSRİ-yə iqtisadi yardım edəcəyi barədə qərarını bildirdi. 1942-ci ilin 23 fevralında ABŞ və Böyük Britaniya arasında təcavüzkara qarşı mübarizəyə qarşılıqlı yardım prinsipləri barədə saziş imzalandı. Antihitler koalisiyasına daxil olan ölkələr arasında münasibətlərin möhkəmləndirilməsində Moskva, Kasablanka, Vaşinqton, Qahirə, Tehran, Yalta və Potsdam konfranslarının çox mühüm əhəmiyyəti olmuşdur. Beləliklə, faşizm əleyhinə kapitalizm və sosializm sistemlərinin vahid koalisiyası yaradıldı, 50 dövlət birləşdi. Müharibə dövründə nasistlərin işğal etdikləri ərazilərdə yaratdıqları dözülməz "yeni qaydaya" qarşı geniş müqavimət hərəkatı yaranmışdı. Hərəkat 1939-1941-ci illərdə meydana gəlib, sonradan geniş miqyas almışdı. Bu hərəkat Yuqoslaviyada (350 min), Yunanıstanda (70 min), Albaniyada, Fransada (300 min), Polşada, Çexoslovakiyada daha güclü idi.

1942-ci ilin iyunundan 1944-cü ilin yanvarına qədər olan dövr İkinci Dünya müharibəsi tarixinə əsaslı dönüş mərhələsi kimi daxil olmuşdur. Müttəfiqlər bütün cəbhələrdə təşəbbüsü öz əllərinə almışdılar. Müharibənin gedişində əsaslı dönüşün yaranmasında Şərq cəbhəsində Sovet qoşunlarının Stalinqrad (1942-1943) və Oryol-Kursk ətrafında alman ordularına qarşı keçirdikləri hərbi əməliyyatların müstəsna rolu olmuşdu. Bu dövrdə müttəfiqlərin iqtisadiyyatında köklü dönüş baş vermişdi.

1944-cü ilin əvvəlindən etibarən SSRİ qoşunlarının keçirdiyi bir sıra strateji hərbi əməliyyatlar nəticəsində almanlar tərəfindən zəbt olunmuş Sovet əraziləri tamamilə azad edildi, döyüşlər Avropa ölkələrinə keçirildi. 1944-cü ilin oktyabrı üçün SSRİ-nin keçmiş sərhədi bərpa olundu. 1944-cü il iyulun 6-da Fransanın şimalına (Normandiya) qoşun çıxarıldı. Beləliklə, ikinci cəbhə açıldı. Həmin ilin avqustunda müttəfiq qoşunların köməyi ilə Fransa faşistlərdən azad edildi. 1945-ci il aprelin 16-da Berlin uğrunda döyüşlər başlandı. Aprelin 25-də Elba çayı üzərində müttəfiq qoşunları görüşdü. Berlinin mühasirəsi başa çatdı. Mayın 2-də Berlin alındı. Mayın 8-də Almaniya danışıqsız təslim aktını imzaladı.

**Ümummilli lider Heydər ƏLİYEV:**

*"Zaman keçdikcə, illər ötdükcə bu qələbənin mənası, mahiyyəti və tarixi əhəmiyyəti daha da aydın olur, bütün dünya üçün daha da açılır".*

Bütün sülhsevər bəşəriyyət bu günlər faşizm üzərində Qələbənin 70 illiyini təntənə ilə qeyd edir. Qələbənin qazanılmasında öz rolu olan Azərbaycan xalqının da bu qələbəni qeyd etməyə mənəvi və hüquqi əsası vardır.

## Faşizm üzərində qələbədə Azərbaycan xalqının rolu

1941-ci il iyunun 22-də keçmiş SSRİ ərazisinə soxulmuş Hitler ordusu yolu üzərindəki bütün şəhər və kəndləri viran etmiş, bir neçə aydan sonra artıq ölkənin Moskva və Leninqrad (Sankt-Peterburq) kimi paytaxt şəhərlərinə yaxınlaşmışdı. Belə bir şəraitdə faşizmə qarşı amansız mübarizəyə SSRİ-nin tərkibində olan Azərbaycan da qoşulmalı olmuşdu. Azərbaycan xalqı Böyük Vətən müharibəsinin əsas ağırlığını öz üzərinə götürmüş ölkələrdən biri idi. Ərazisində müharibə getməsə də, bu cənub ölkəsinin vətəndaşları istər ön, istərsə də arxa cəbhədə böyük şücaətlər göstərərək qələbəyə böyük töhfələr verdi. Müharibənin ilk illərindən etibarən Azərbaycan SSR-də 87 qırıcı batalyon və 1124 özünümüdafiə batalyonu təşkil olundu. 700 mindən artıq vətəndaş isə səfərbərliyə alınaraq birbaşa ön cəbhəyə yola salındı. Ancaq onların yarıdan çoxu müharibədə həlak oldu.

İkinci Dünya müharibəsinin başlanması ilə əlaqədar olaraq Stalinin 1941-ci ilin 18 oktyabr tarixli əmrinə əsasən, azərbaycanlılardan ibarət 77-ci dağıdıcı diviziyası, 223-cü, 396-cı, 402-ci və 416-cı milli atıcı diviziyaları yaradıldı və onlar Zaqafqaziya hərbi dairəsində yerləşdirilmiş 44-cü, 45-ci və 46-cı orduların tərkibinə daxil edildilər.

Azərbaycanlılardan ibarət 416-cı, 402-ci, 396-cı, 223-cü, 77-ci və s. milli diviziyalar Simferopolun, Odessanın və digər şəhərlərin, 77-ci diviziya Polşa və Çexoslovakiyanın, 223-cü diviziya Yuqoslaviyanın azad olunmasında fəal iştirak etmiş, 416-cı diviziya Qafqazdan Berlinə qədər böyük və şərəfli bir döyüş yolu keçmiş, Berlinin süquta yetirilməsində xüsusi qəhrəmanlıq göstərmişdir.

Müxtəlif cəbhələrdə faşist qoşunlarına qarşı döyüşlərdə göstərdikləri rəşadətə görə 416-cı diviziya "Taqanroq diviziyası", döyüşçülərinin əksəriyyətini azərbaycanlılar təşkil edən 227-ci diviziya "Temryuk diviziyası", 271-ci diviziya "Qarlov diviziyası", 77-ci diviziya "Simferopol diviziyası" və 223-cü diviziya "Belqrad diviziyası" adını qazanmışdılar.

Amansız müharibə təkcə ön cəbhədə döyüşənlər üçün deyil, elə arxa cəbhədə qalanlar üçün də məşəqqətə çevrilmişdi. Təcili surətdə bütün SSRİ, o cümlədən Azərbaycan iqtisadiyyatı hərbi relslər üzərinə keçirilmişdi. Yüngül və yeyinti sənayesi sahələri hərbiləşdirilmiş, az vaxt ərzində Bakı şəhəri döyüşən ordunun cəbbəxanasına çevrilmişdi.

Azərbaycan neftçiləri isə Böyük Vətən müharibəsində əvəzsiz bir rol oynadılar. Cəbhəni, döyüş tank və təyyarələrini yanacaqla əsasən Azərbaycan neftçiləri təmin edirdi. Məşhur Azərbaycan alimi, akademik Yusif Məmmədəliyev gecə-gündüz çalışaraq döyüş təyyarələri üçün yüksək oktanlı benzinin alınması üsulunu kəşf etdi. Yusif Məmmədəliyev başda olmaqla, kimyaçı alimlər müharibə illərində 38 növ sürtkü yağı, 9 adda təyyarə benzini və 8 növ dizel yağı istehsalını təşkil etmişdilər.

1941-ci ildə Azərbaycanın neft hasilatı tarixində rekord miqdarda - 23,5 milyon ton neft istehsal olunmuşdu. Bu, bütün SSRİ-də istehsal olunan neftin 71,4 faizi demək idi. Ümumiyyətlə, müharibə illərində Azərbaycan neftçiləri keçmiş SSRİ-yə 75 milyon ton neft, 22 milyon ton benzin və başqa neft məhsulları vermişdilər. Sovet ordusunun təyyarə və tankları, demək olar ki, Bakı nefti ilə işləyirdi. Qətiyyətlə demək olar ki, Bakı nefti faşizm üzərində qələbənin əsas amillərindən biri olmuşdur. Təkcə onu demək kifayətdir ki, müharibədə hər beş təyyarədən dördü, hər beş tankdan dördü, hər beş avtomobildən dördü Bakıdan göndərilən yanacaqla işləyirdi. Böyük Vətən müharibəsi Azərbaycan xalqının kütləvi qəhrəmanlıq və fədakarlığını nümayiş etdirdi.

Müharibə illərində Bakıda 130-dan çox növdə silah və döyüş sursatı istehsal edilmişdi. Bakı döyüşən ordunun cəbbəxanalarından birinə çevrilmişdi. Bakıda "Katyuşa" raketi, "Şpaqin pulemyotu" istehsal edilir, "YAK-3" qırıcı təyyarəsi yığılırdı.

Azərbaycanın digər sərvətləri də cəbhə üçün sərf olunurdu. Arxa cəbhədə istər zavod və fabriklərdə, istərsə də tarlalarda çalışan qadınlarımız nəinki ərlərini əvəz edərək işləyir, həm də döyüş meydanlarında candan keçməyə hazır olan ərləri üçün yun corablar, əlcəklər, köynəklər toxuyur, özlərinin zinət əşyalarını ölkənin Müdafiə Fonduna bağışlayırdılar.

Azərbaycanın bütün iqtisadiyyatı müharibə dövrünün tələblərinə uyğun qurulmuşdu. Fəhlə və qulluqçular üçün iş günü 11-12 saata qaldırılmış, məzuniyyətlər ləğv olunmuşdu. Ərzaq və çox işlənən sənaye məhsullarının satışı üzrə kart sistemi tətbiq edilmişdi. Orduya səfərbər edilmiş işçilərin əvəzinə qadınlar və yeniyetmələr cəlb olunmuşdular. Müharibənin ilk ilində neft sənayesində işləməyə 11 min qadın gəlmişdi. Gənclərdən ixtisaslı kadrlar hazırlanması üzrə böyük işlər görülürdü. Müəssisələrdə və kolxozlarda işləyənlərin təxminən 70 faizi qadınlar idi. Bütün sənaye sahələri cəbhə üçün məhsul istehsal edirdi.

1941-1943-cü illərdə Azərbaycan vətəndaşları Müdafiə Fonduna 15 kiloqram qızıl, 952 kiloqram gümüş, 311 milyon manatlıq istiqraz bağışlamışdılar. Öz vəsaitləri hesabına tank və təyyarələr alaraq cəbhəyə göndərmişdilər.

SSRİ-nin süqutundan, Azərbaycanın müstəqillik qazanmasından sonra da Qələbə günü bütün MDB ölkələrində qeyd edilir. Azərbaycan da özünün qəhrəmanlarını unutmur. Eyni zamanda, bu qəhrəmanlar torpaqlarının 20 faizi qonşu Ermənistan tərəfindən işğal olunmuş ölkəmizin vətəndaşları üçün əsl örnəkdir.

Mayın 9-da Böyük Vətən müharibəsində faşizm üzərində Qələbənin 70-ci ildönümüdür. Bu qələbənin qazanılmasında xüsusi rolu olan Azərbaycanda da, həmin tarix dövlət səviyyəsində qeyd olunacaq. Belə ki, Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 23 fevral tarixli sərəncamı ilə "1941-1945-ci illər müharibəsində Qələbənin 70 illik yubileyinə hazırlıq və yubileyin qeyd olunması üzrə Tədbirlər Planı" təsdiq edilib. Həmin plana əsasən, Gəncə şəhərində, Ağcabədi və Zərdab rayonlarında müharibə veteranlarının, hərbi qulluqçuların, şəhər və rayon ictimaiyyətinin iştirakı ilə tədbirlər keçirilmişdir. Hazırda respublikamızın digər rayonlarında da bədii təşviqat marafonu öz işini davam etdirir. Qələbənin 70 illiyi ilə əlaqədar keçirilən tədbirlər gənclərimizin hərbi vətənpərvərlik tərbiyəsinə öz töhfəsini verir.

**Müdafiə Nazirliyi**
**Mənəvi-Psixoloji**
**Hazırlıq və İctimaiyyətlə**
**Əlaqələr İdarəsi**

AZƏRBAYCAN ORDUSU

(Əvvəli 2-ci səhifədə)



# Məşəl kimi bir sevgi var içimdə

Hələ Birinci Dünya müharibəsi ərəfəsində bir sıra dövlətlər Osmanlı imperiyasının mövcudluğu ilə barışa bilmir, üç qitəni əhatə edən Türkiyə torpaqlarını işğal edərək öz aralarında bölüşdürmək barədə planlar qururdular. Tarixi məlumatlara görə, həmin dövlətlər bir-biri ilə danışıqlar aparıb, hətta 1915-1917-ci illərdə bağladıqları sazişlərə əsasən, Osmanlı dövlətinə məxsus ərazilərin işğal edilməsi barədə razılığa da gəliblərmiş.

Həmin razılaşmaya görə, imperiyanın Şərq vilayətlərini Rusiyanın ixtiyarına vermək nəzərdə tutulurdu. İngiltərə Meşopotamiya, eyni zamanda İzmir-Aydın dəmir yollarının keçdiyi torpaqlara sahib çıxmaq, Fransa isə Suriyanı ələ keçirmək niyyətində idi. Tarixən Osmanlı dövləti ilə yaxşı münasibətləri olmuş Almaniya isə Anadolu ərazilərini mənimsəmək arzusundaydı. Bir sözlə, Türkiyəni bir dövlət olaraq tarix səhnəsindən silmək istəyirdilər. Amma bu istək hərb dərsliklərinə türk qəhrəmanlığı nümunəsi kimi salınan Çanaqqala döyüşlərində düşmən gəmilərilə birgə sulara qərq oldu.

Osmanlı Ordusunun şücaəti, əzmkarlığı düşmən dövlətlərin siyasi xadimlərini, generallarını heyrətə salmışdı. Məşhur ingilis dövlət və hərb xadimi, Geliboluda ingilis donanmasına rəhbərlik etmiş Uinston Çörçill çaşqınlığını gizlətməyərək bildirmişdi ki, "türklər Çanaqqalada ən müasir silahlarla silahlanmış güclər qarşısında bir qala kimi dayanmışdılar".

Zaman-zaman qüdrətli dövlətlər qurmuş türk xalqının iradəsini, vətənsevərliyini, döyüş əzmini, qəhrəmanlığını Gelibolu döyüşləri dünyaya bir daha nümayiş etdirdi. Əslində bu döyüşlərdə əsgərlərin, ordunun igidliyindən yox, bütövlükdə türk xalqının qəhrəmanlığından danışmaq daha düzgündür, çünki qələbə üçün heç kim güc və imkanını əsirgəməmişdi.

Çanaqqala döyüşlərində həm də türk dünyasının qəhrəman oğlu, Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Paşa Atatürkün sərkərdəlik istedadı üzə çıxmış, parlamışdı. Çanaqqalaya hücum əməliyyatını hazırlayıb ona rəhbərlik etmiş Çörçill həmin döyüşlər barədə xatirələrində yazırdı ki, "bir polkovnikin qarşımıza çıxması bütün taleyimizi dəyişdirdi".

Həmin döyüşlərin nəticəsi olaraq belə bir deyim də öz təsdiqini tapmışdı: "Çanaqqala keçilməz!"

Dünyaya səs salmış Çanaqqala zəfəri o qədər də asan qazanılmamışdı. 250 mindən artıq cəsur türk oğlu bu amansız döyüşlərdə şəhid oldu, ancaq elə bu qədər itki vermiş düşmən İstanbula, Anadolu torpaqlarına buraxılmadı.

Xatırlamaq xoşdur ki, bu böyük Qələbənin qazanılması üçün Azərbaycan oğulları da könüllərinin istəyilə İstanbula üz tutaraq Osmanlı Ordusunun sıralarına yazılmışdılar. Azərbaycandan Türkiyə sevgisi ilə gedib Çanaqqalada vuruşmuş 18 yaşlı İbrahim də onlardan biridir. Həmin döyüşlərdə şəhid olmuş həmyerlimiz Çanaqqala məzarlığında cəsur türk oğulları ilə birlikdə uyuyur.

Bəzi məlumatlara görə, Çanaqqala döyüşlərində üç minə yaxın Azərbaycan türkü şəhid olub.

İmreriyaların düşüncə və əməllərdə ayrılıq toxumu əkməsinə rəğmən Anadolu və Azərbaycan türkləri daim bir-birilərinə can atıb, imkan düşəndə qardaşyana çiyin verməyə, yardım etməyə çalışıblar. Təkcə XX yüzildə bununla bağlı istənilən qədər önəmli nümunələr gətirmək olar.




Qardaşı Xosrov bəy Sultanovun təşəbbüsü ilə Qurtuluş savaşı aparan türk qardaşlarımıza kömək üçün Azərbaycan xalqının cəsur oğlu, Laçın dağlarında daşnak Andranikin silahlı dəstələrinə sarsıdıcı zərbə endirmiş Sultan bəyin bir süvari dəstəsi hazırlayaraq Qarsa göndərməsi barədə məlumatlar da var.

1918-ci il iyunun 4-də Batumidə Türkiyə və Azərbaycan xalqlarının tarixində olduqca mühüm bir hadisə baş vermişdi. Osmanlı İmperatorluğu ilə Azərbaycan Xalq Cümhuriyyəti arasında tarixi Dostluq Müqaviləsi imzalanmışdı. Dar gündə Azərbaycanı tək buraxmayan Türkiyə bu müqavilə ilə Bakıya bütün mümkün yardımı göstərməyə başlamışdı. Nuru paşanın komandanlığı ilə köməyə göndərilmiş qüvvələrin azərbaycanlı silahdaşları ilə Qafqaz İslam Ordusunda birləşərək ölkəmizin döyünən ürəyi Bakını daşnak və bolşeviklərdən təmizləməsi iki xalq arasında qardaşlığın ən böyük təcəssümü oldu.

Gördüyü böyük xeyriyyə işlərinə görə xalq arasında dərin nüfuz qazanmış Hacı Zeynalabdin Tağıyev o illərdə "Türkiyənin nicatı bizim nicatımızdır, məhvi bizim məhvimizdir" demişdi. Unudulmaz mesenat çətin günlərində İstanbula "Qardaşlıq köməyi" adlı bir yardım kampaniyası təşkil etmişdi. Hacının çağırışına səs verən Bakının digər imkanlı insanları da səxavət əlini açmış, xeyli yardım toplanaraq Türkiyəyə göndərilmişdi.

Mustafa Kamal Atatürkün vaxtilə söylədiyi məşhur "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir" sözləri də əslində türk xalqının azərbaycanlı soydaşlarına münasibətinin bariz ifadəsidir.

Qurtuluş savaşından sonra Türkiyə maddi sıxıntılar yaşayarkən Mustafa Kamal Atatürk hər şeydən öncə Bakıya üz tutmaq qərarına gəlmişdi. Doğan Avcıoğlunun "Milli qurtuluş tarixi" kitabında yazdığına görə, Atatürk 3 may 1920-ci ildə Şərq ordusu komandanı Kazım Qarabəkir paşaya göndərdiyi məktubda ürək kövrəldən, ərklə, göz yaşardan qardaşlıq duyğusu ilə yazırdı: "Dövlətin pulu qalmadı. İndiki halda heç bir yerdən kömək istəməyə ümid də yoxdur. Başqa çıxış yolu tapana qədər Azərbaycan hökumətindən borc almağınızı rica edirəm".

Kazım Qarabəkir paşa Atatürkün xahişini birbaşa Azərbaycanın o vaxtkı rəhbəri Nəriman Nərimanova çatdırır. N.Nərimanov 19 avqust 1920-ci ildə Atatürkə cavab məktubu göndərərək belə yazır: "…qardaş qardaşa borc verməz. Qardaş hər zaman qardaşın əlindən tutar. Biz qardaşıq və hər zaman əlinizdən tutacağıq…".

Azərbaycan hökuməti vədinə sadiq qalır və qardaş ölkəyə 500 kiloqram qızıl yola salır. Sonradan Azərbaycan rəhbərliyi İstanbula əlavə 10 milyon qızıl rubl da göndərir. Çox keçmir ki, Türkiyənin müraciətini gözləmədən Azərbaycan hökuməti hədiyyə kimi 92 sistern neft, 2 sistern benzin, 8 sistern yağ da çatdırır.

90-cı illərdə öz müstəqilliyini bərpa etdikdən sonra Azərbaycanla Türkiyə arasında əlaqələr daha da genişlənib, möhkəmlənib. Azərbaycanın böyük oğlu, dünya miqyaslı dövlət adamı Heydər Əliyevin söylədiyi "bir millət, iki dövlət" kəlamı iki dövlət arasında qardaşlıq münasibətlərini bütün dolğunluğu ilə səciyyələndirir.

Bu gün bütün taleyüklü məsələlərin həll olunduğu mötəbər beynəlxalq kürsülərdə Türkiyə Azərbaycanın, Azərbaycan da Türkiyənin yanındadır. Dağlıq Qarabağı işğal etdiyinə görə qardaş ölkə öz sərhəd qapılarını Ermənistanın üzünə möhkəm bağlayıb. Rəsmi Ankara ölkəmizin ərazi bütövlüyü bərpa olunmayana qədər qərarını dəyişməyəcəyini dəfələrlə bəyan edib.

Bütün regional iqtisadi, o cümlədən enerji layihələrində Bakı Ankara ilə çiyin-çiyinə fəaliyyət göstərir. Azərbaycandan Avropaya uzanan neft və qaz kəmərləri qardaş ölkənin ərazisindən keçir. Tikintisi başa çatdırılmaqda olan Bakı-Tbilisi-Qars dəmir yolu təkcə qardaş ölkələri birləşdirməyəcək, həm də Çindən tutmuş İtaliyaya qədər məşhur İpək Yolu ölkələrini bir-birinə qovuşduracaq. Bir sözlə, iki dövlət arasında siyasi-iqtisadi, mədəni və hərbi əlaqələr olduqca yüksək, arzuolunan səviyyədədir.

Belə bir deyim var: dostluq, qardaşlıq dar gündə sınanar. Türkiyə ilə Azərbaycan arasında qardaşlıq, doğmalıq çox sınaqlardan keçib. Türk xalqının qəhrəmanlıq rəmzinə çevrilmiş Çanaqqala zəfərinin qazanılması üçün aparılan mücadilə də buna parlaq nümunədir.

**Əbülfət QASIMOV,**
**"Azərbaycan Ordusu"**

# Unutmayaq!

***1988-1994-cü illərdə Azərbaycanın bu torpaqları ermənilər tərəfindən işğal edilmişdir:***

***Dağlıq Qarabağ (Şuşa, Xankəndi, Xocalı, Əsgəran, Xocavənd, Ağdərə), işğal tarixi - 1988-1994-cü illər. Sahəsi: 4400 kv.km.***
***Şərur rayonunun Kərki və Cünnüt kəndləri (17 fevral 1990) - 19 kv.km.***
***Qazax rayonunun Yuxarı Əskipara, Aşağı Əskipara, Sofulu, Bağanıs-Ayrım, Qızıl Hacılı, Barxudarlı və Xeyrimli kəndləri (1990-1992) - 75 kv.km.***
***Laçın (18 may 1992-ci il) - 1835 kv.km.***
***Kəlbəcər (3-4 aprel 1993-cü il) - 1936 kv.km.***
***Ağdam (23 iyul 1993-cü il) - 1094 kv.km.***
***Cəbrayıl (18 avqust 1993-cü il) - 1059 kv.km.***
***Füzuli (23 avqust 1993-cü il) - 1386 kv.km.***
***Qubadlı (31 avqust 1993-cü il) - 802 kv.km.***
***Zəngilan (30 oktyabr 1993-cü il) - 707 kv.km.***

**Bu torpaqları azad etmək bizim müqəddəs borcumuzdur!**

# Sonuncu addıma doğru

***Hərbi jurnalist Vahid Məhərrəmovun "Hər addım uğrunda" kitabı ilə tanış olduqda öncə bir yerdə çiyin-çiyinə çalışdığım qələm dostumun növbəti yaradıcılıq uğurunu görmək mənə xoş təsir bağışladı.***




17-18 il əvvəli xatırladım. O vaxt jurnalist həmkarım ilk kitabının redaktorluğunu mənə həvalə etmişdi. Mən də kitaba ön söz yazmaqla redaktə edib nəşrə hazırladım. Lakin açığı, müəllifin seçdiyi adların heç biri redaktor kimi məni qane etmirdi. Çox fikirləşib kitab üçün belə bir ad təklif etdim: "Müharibənin bir ili". Sanki o vaxt sövq-təbii hiss etmişdim ki, müharibə mövzusunda Vahidin qələmə alacağı yazıların ardı gələcək... Ötüb keçən illər isə mənim yanılmadığımı sübut etdi. Bir-birinin ardınca həmkarımın növbəti kitabları həyata vəsiqə aldı: "Səngərdə yazılmış sətirlər", "Qələbə naminə", "Ölməzlik zirvəsi", "Pulemyotçu Nurəddin", "Erməni əsirliyindən dönənlər", "Qanlı gecə-qanlı tarix". Bir sözlə, təxminən hər iki ilə bir kitab. Doğrudan da, həsəd aparılmalıdır. Əgər bu kitabları bir ad altında birləşdirmək lazım gəlsə, onda heç şübhəsiz, ağlımıza belə bir ad gələr: "Qarabağ müharibəsinin salnaməsi". Həqiqətən də bu kitabları vərəqləyən hər bir kəs orada doğma torpaqlarımıza erməni təcavüzünün başlandığı ilk günlərdən atəşkəsə qədər davam edən hərbi əməliyyatların, baş verən hadisələrin, bir sözlə, qanlı-qadalı illərin acı mənzərələri ilə tanış ola bilər. Hərbi jurnalist kimi "qaynar nöqtə"lərə, cəbhə bölgələrinə birgə ezamiyyətlərimiz zamanı Vahidin ön xəttə necə can atmasının, baş verən hadisələri öz gözləri ilə görməyə çalışmasının, səngər həyatını hərtərəfli müşahidə etməsinin, Vətən oğullarını yaxından görüb tanımaq istəyənin nə qədər güclü olduğunun canlı şahidi olmuşam. O, yorulmadan barıt qoxulu səngərləri qarış-qarış gəzib dolanır, düşmənlə göz-gözə, nəfəs-nəfəsə dayanıb torpaqlarımıza keşik çəkən qorxmaz əsgər və zabitlərimizin şərəfli xidmət yolu ilə tanış olur. Onun "döyüş gündəliyi" beləcə saatbasaat, günbəgün, aybaay yazılır, zənginləşir. Ayaqüstü, tələm-tələsik, bəzən təhlükənin hələ sovuşmadığı məqamlarda edilən qeydlər, qələmə alınan təəssüratlar sonradan neçə-neçə məqalənin, reportajın, oçerkin, hekayə və povestin "canlı materialı"na çevrilir. Gündəlik mətbuatla maraqlanan hər bir oxucu onun yazılarını "Qarabağ", "Əsgər", "Sərhəd", "525-ci qəzet", "Azərbaycan Ordusu", "Kaspi" qəzetlərində, "Azərbaycan" və "Ulduz" jurnallarında yəqin ki, oxuyublar.

Sözügedən kitabda müəllifin "Ölüm vaxtı" adlı povesti, hekayələri və publisistik yazıları yer alıb. Həmkarımın kitabını oxudum. Burada doğma yurdunu təcavüzkarlardan qoruyan igid Vətən oğullarının şücaəti, torpaq uğrunda canından keçən şəhidlərin ölməzliyi ilə yanaşı, bədii təxəyyülün məhsulu olan bir çox cəhətlər real təcəssümünü tapıb. Mən onlar haqqında ətraflı danışmaq fikrində deyiləm. Bir də ki, bu məziyyətlər haqqında yaradıcılığına hörmət bəslədiyim zəhmətkeş qələm dostlarım Əbülfət Mədətoğlu və Nemət Veysəlli mətbuatda öz sözlərini deyiblər. Buraya onu da əlavə etmək yerinə düşər ki, kitabın Azərbaycan Yazıçılar Birliyinin Natəvan adına klubunda keçirilən təqdimetmə mərasimində geniş müzakirə gedib, hərtərəfli danışılıb.

Bu kitabı müasir gəncliyə ünvanlanmış əsər kimi də dəyərləndirmək olar. Orada Vətən sevgisi, torpaq məhəbbəti, yurd həsrəti ilə yanaşı, düşmənə acı nifrət, kəskin qəzəb və güclü intiqam hissi bir-biri ilə çulğaşıb. Kitabı oxuyan hər bir oxucu iki qardaşın - Babəklə Bəhruzun düşmən əsirliyində keçirdiyi günlərin məşəqqəti ilə rastalşır. ("Ölüm vaxtı"), döyüşən hərbi hissədə tanış olub bir-biri ilə əhdpeyman bağlayan tibb bacısı Samirə ilə əsgər Teymurun nakam sevgisinə acıyır ("Sevgiyə açılan atəş"), birinci sinfə gedəcək oğluna aldığı məktəbli çantasını ona çatdıra bilməyib səngərdə şəhid olan gənc leytenant Dönməz Qubadovun taleyinə yanır ("Qanlı məktəbli çantası"), "Azərbaycan zabiti düşmənə əsir düşməz", - deyib son anda özünə qəsd edən Vüqarın xarakterinə heyran olur. Kitabda belə məqamlar çoxdur.

Müəllif publisistik yazılarından birini hər bir oxucuya ünvanladığı aşağıdakı sonluqla bitirir: "Ermənistan Azərbaycan Ordusunun gücünü, qüdrətini görməyincə çətin ki, işğalçı qoşunlarını topaqlarımızdan çıxarsın. Ona görə də düşmənə qolumuzun gücünü, dizimizin möhkəmliyini və döyüşkənliyimizi yaxşı-yaxşı göstərməliyik". Haqlısan, qələm dostum! Ordumuzun sıralarında mətinlik məktəbi keçmiş Mübariz İbrahimov kimi oğulların varlığı, bir neçə ay əvvəl Ağdam bölgəsində qoşunların təmas xəttini yarıb irəliləmək istəyən düşmənin 10-larla hərbçisinin layiqli cavabının verilməsi, nəhayət bu yaxınlarda yenə də Ağdam istiqamətində mövqelərimizə atəş açmağa cəhd edən düşmən helikopterinin cəmi bir atəşlə məhv edilməsi ordumuzun potensial döyüş hazırlığından, qətiyyət və əzmkarlığından xəbər verir.

**Səfər MAHMUDZADƏ,**
**"Hərbi Bilik"**

# Göygöl rayonunda "Şahinlər"in birinciliyi

***Ölkəmizin hər yerində olduğu kimi, Göygöl rayonunda da məktəbli və yeniyetmələrin vətənpərvərlik tərbiyəsinə böyük diqqət göstərilir. Bu istiqamətdə mədəni kütləvi tədbirlərin keçirilməsi ənənə halını alıb. Belə tədbirlərdə məktəblilər həvəslə iştirak edirlər. Hərbi idman oyunlarının keçirilməsi isə gənc nəslin ordu həyatına hazırlanmasında mühüm rol oynayır.***

Bu il də məktəblilərin "Şahin" hərbi-idman oyunlarının rayon birinciliyi "N" hərbi hissəsində start götürdü. Yarışa həsr olunmuş mitinqi Göygöl rayon Gənclər və İdman İdarəsinin rəisi Zaur Abbasov açıq elan etdi. Müstəqilliyimizin rəmzi olan Dövlət himni səsləndirildi. Sonra idarə rəisi ölkəmizdə hərbi vətənpərvərlik tərbiyəsinə göstərilən diqqət və qayğıdan danışdı. Bildirdi ki, Respublika Prezidenti, Ali Baş Komandan İlham Əliyev tərəfindən böyüməkdə olan nəslin gələcəyimizin fəal qurucuları kimi formalaşmasına yüksək qayğı göstərilir. Təhsil sahəsində həyata keçirilən uğurlu islahatlar şagirdlərin müasir tələblər səviyyəsində təlim-tərbiyə almasına, vətənpərvərlik ruhunda böyümələrinə geniş imkanlar yaradır. Keçirdiyimiz tədbirlər də bu məqsədə xidmət edir. Bu gün növbəti rayon birinciliyi uğrunda məktəblilərin aparacaqları mübarizə şagirdlərin istedad və bacarıqlarını nümayiş etdirəcək.



Yarışın hakimi mübarizənin başlanması haqqında xəbərdarlıq edir. Sonra məktəblilər təyin olunmuş yerlərdə sıra hazırlığı, darağa patronun doldurulması və boşaldılması, avtomatın sökülməsi və yığılması, tüfəngdən hədəfə atəş açmaq, fiziki hazırlıq, maneələrin dəf olunması, kəndir vasitəsilə təhlükəli zonanın dəf edilməsi, mülkü müdafiə üzrə tapşırıqları yerinə yetirdilər. Münsüflər heyətinin rəyinə əsasən, I yerə 1 saylı məktəbin şagirdləri, II yerə Üçtəpə kənd orta məktəbinin, III yerə isə Çaylı kənd orta məktəbinin komandaları layiq görüldülər. Qaliblərə diplomlar, fəxri fərmanlar və qiymətli hədiyyələr təqdim olundu. Qalib komanda zona birinciliyində iştirak etmək hüququ qazandı.

**Mübariz MUSAYEV,**
**"Azərbaycan Ordusu"**

*Qələbə - 70*

# Müharibə veteranları ilə görüş





***Bu günlərdə Naxçıvan Qarnizonunun Zabitlər Evində Hitler faşizmi üzərində Qələbənin 70 illiyi ilə əlaqədar olaraq müharibə veteranları ilə hərbi qulluqçuların görüşü keçirilib.***

Əvvəlcə Azərbaycan Respublikasının Dövlət himni səsləndirilib. Əlahiddə Ümumqoşun Ordusunun Mənəvi-Psixoloji Təminat Şöbəsinin rəisi polkovnik Mirqiyas Rüstəmov tədbiri açıq elan edərək bildirib ki, bəşər tarixində indiyədək baş vermiş müharibələrdən ən dəhşətlisi İkinci Dünya müharibəsi olub. "110 milyon insanın iştirak etdiyi, onlardan 65 milyondan çoxunun həlak olduğu bu dəhşətli müharibədə Azərbaycan xalqı da qələbənin qazanılmasında mühüm rol oynayıb".

Digər çıxış edənlər də vurğulayıblar ki, bu gün ölkəmizdə təkcə İkinci Dünya müharibəsi veteranlarına deyil, həm də Vətənimizin azadlığı və ərazi bütövlüyü uğrunda gedən döyüşlərin iştirakçılarına və şəhid ailələrinə xüsusi diqqət və qayğı göstərilir. "Bu diqqət və qayğını görən hər bir gənc də əcdadlarının şanlı ənənələrini şərəflə davam etdirərək torpaqlarımızın azadlığı və ərazi bütövlüyü uğrunda öz mübarizliyi ilə seçilməyə çalışır".

Tədbirin sonunda İkinci Dünya müharibəsi veteranlarına xatirə hədiyyələri verilib.

**Nəriman NƏCƏFOV,**
**Naxçıvan**

# "Qondarma erməni genosidi" - tarixi yalan

***Bu günlərdə "Qondarma erməni genosidi"nin 100 illiyi ilə əlaqədar Hərb Tarixi Muzeyində Azərbaycan Milli Elmlər Akademiyasının Tarix İnstitutunun dəstəyi ilə birgə dəyirmi masa təşkil olunub. Əvvəlcə keçən əsrdə erməni təcavüzkarlarının xalqımıza qarşı törətdiyi soyqırımı qurbanlarının və torpaqlarımızın bütövlüyü uğrunda canını fəda etmiş şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla anılıb.***

Dəyirmi masada giriş nitqi söyləyən muzeyin rəisi ehtiyatda olan polkovnik Əzizağa Qənizadə vurğulayıb ki, erməni millətçiləri həyata keçirdikləri terror fəaliyyətlərini guya nə vaxtsa onlara qarşı edilmiş "genosid"in intiqamı kimi pərdələməyə çalışırlar. Lakin bir həqiqət var ki, genosidə məruz qalan bir xalq heç vaxt başqa xalqlara qarşı genosid siyasəti həyata keçirməz.



"Qondarma erməni genosidi"nin 100 illiyinin keçirilməsi ərəfəsində Avropa parlamentində tarixi yalan haqqında qətnaməyə münasibət bildirilərkən qeyd olunub ki, uzaq keçmişdə baş verən həqiqətlərə etinasızlığın bariz nümunəsi olan və antimüsəlman, antitürk ovqatından qaynaqlanan bu qərar reallıqdan tam uzaqdır və dünyada mövcud olan ikili standartların daha bir nümunəsidir. Tarixdə heç bir erməni soyqırımının baş vermədiyini Qərb alimləri özləri çoxdan sübuta yetirmişlər. Lakin buna baxmayaraq, müəyyən dövlətlərin maraqları naminə belə saxta qərar qəbul edildi.

AMEA-nın Tarix İnstitutunun yeni tarix şöbəsinin müdiri, tarix üzrə fəlsəfə doktoru Hacı Həsənovun xarici ölkə arxivlərindən əldə etdiyi sənədlərə, zəngin faktlara söykənən ətraflı çıxışı tədbir iştirakçılarında maraq doğurub. "Əslində tarix sübut edir ki, XX əsrin ikinci yarısında Türkiyə, Gürcüstan və Azərbaycan ərazilərinin bir hissəsini tutub "Böyük Ermənistan" və ya "Dənizdən-dənizə dövlət" yaratmaq xülyası ilə yaşayan erməni millətçiləri bu yolda bütün vasitələrdən istifadə etmişlər. Artıq iki əsrdir ki, məkrli və qaniçən erməni cəlladları Azərbaycan xalqına qarşı soyqırımı siyasəti yeridir, soydaşlarımızı repressiya və deportasiyaya məruz qoymaqla, etnik təmizləmə siyasətini həyata keçirir. Ərazilərimizin bir hissəsini işğal etmiş daşnaklar bu gün də yeni ərazilər tutmaq fikirlərindən əl çəkməmişlər. Nəticədə, xalqımız ağır mərhumiyyətlərə, milli faciə və məşəqqətlərə məruz qalıb".

Müzakirələr zamanı muzey əməkdaşlarının çıxışları da dinlənilib.

**"Azərbaycan Ordusu",**
**foto**
**kiçik çavuş**
**Namiq PƏNAHOVUNDUR**

**Məsul katib**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, Akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
mayor
Bəxtiyar ƏLİYEV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə nəşr olunur. "Azərbaycan Ordusu" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Hərbi nəşriyyatın mətbəəsində hazır diapozitivlərdən çap olunmuşdur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.

Lisenziya № 361
Sifariş № 423
Nüsxə 4600